*Yasamal rayonu*

# İnkişaf tempi davam edir





Bakının Yasamal rayonunda son illər bütün sahələrdə müsbət irəliləyişlər müşahidə olunur, iqtisadiyyatın inkişaf dinamikası davam edir, abadlıq və quruculuq işləri vüsət alır, insanların həyat tərzi durmadan yaxşılaşır.

Oktyabrın 20-də rayon icra hakimiyyətində 2015-ci ilin 9 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş toplantı keçirildi. Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən **Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev** vurğuladı ki, rayonun iqtisadi göstəriciləri yüksəkdir. Cari ilin 9 ayında sənaye məhsulunun ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 114 faiz artaraq 73 milyon, nəqliyyat sektorunda xidmətlərin həcmi 116 faiz artaraq 1 milyard 291 milyon, rabitə xidmətlərinin həcmi 104 faiz artaraq 440 milyon manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsi 1 milyard 300 milyon, əhaliyə göstərilən pullu xidmətlər 502 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 109 və 119 faiz artım deməkdir. Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 594,4 manat təşkil etmişdir.

Hesabat dövründə Dövlət proqramlarının icrası davam etdirilmişdir. “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” çərçivəsində Yeni Yasamal yaşayış massivində idman kompleksinin inşası davam etdirilir. “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”na əsasən Yasamal rayonu üzrə 17 tədbirin icrası nəzərdə tutulmuşdur ki, bunlardan 2-si tam icra olunub. O cümlədən Fizika-riyaziyyat və informatika təmayüllü liseyin əsaslı təmir və yenidənqurma işləri başa çatdırılıb. Sentyabrın 3-də liseyin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Dövlət Proqramının 7 bəndi hazırda icra olunur. Bunadək iyunun 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva rayonda daha bir açılış mərasimində iştirak edərək Azərbaycan Milli Konservatoriyasının inzibati-tədris kompleksinin yaxınlığında salınan yeni parkda yaradılan şəraitlə tanış olmuşlar.

Bu il də rayonda çoxşaxəli və genişmiqyaslı tədbirlər davam etdirilmişdir.

Respublikamızda keçirilən beynəlxalq idman yarışları ilə əlaqədar rayonda xeyli irihəcmli işlər həyata keçirilmişdir.

Beynəlxalq velotur yarışları və “Bakı-2015” Avropa Oyunlarına hazırlıqla əlaqədar küçə və prospektlərə asfalt örtüyü vurulmuş, səkilər abadlaşdırılmış, yaşıllıq zolaqları salınmış, binaların fasadlarına müasir görkəm verilmiş, yeni işıqlandırma sistemləri quraşdırılmışdır. Ümumilikdə rayonda bu beynəlxalq əhəmiyyətli tədbirin yalnız marşrut hissəsinə düşən 7 min metrdən çox hissəsində bina və qurğuların fasad hissələrinə üzlüklər vurulmuş, dam örtükləri yenidən qurulmuş, digər hissələrdə isə işıqlandırma sistemi ilə təchiz olunan 4 metr hündürlükdə dekorativ hasarlar quraşdırılmışdır. 150-dən çox fərdi yaşayış evinin dam örtüyü və fasadı təmir edilərək ətraf ərazinin ümumi görünüşünə uyğunlaşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 31 yaşayış binasının fasadına vurulmuş üzlüklərin sökülərək yanğınadavamlı yeni üzlüklərin vurulması beynəlxalq idman yarışlarının açılışınadək başa çatdırılmışdır.

Əbdülvahab Salamzadə küçəsinin iki tərəfində - 1996 kv.m, Mətbuat prospekti, Hərbi hissənin qarşısında - 2103 kv.m ölçüdə hasarlar qurulmuş, Xarici Dairəvi yolda, avtomobil satışı bazarından “Royal Park” yaşayış massivi istiqamətində 2600 kv.m, Nəriman Nərimanov prospekti boyunca sökülmüş ərazilərin qarşısında 1200 metr, Murtuza Muxtarov və Mirzə Ağa Əliyev küçələrinin kəsişməsində 155 metr uzunluğunda dekorativ hasarlar quraşdırılmışdır.

Beynəlxalq yarışlar ərəfəsində şənbə günləri iməciliklər keçirilərək rayonun ayrı-ayrı yerlərində 2500 ağac və bəzək kolları əkilmişdir.

Yarışlarda mütəşəkkilliyin təmin olunması məqsədilə Milli Olimpiya Stadionunda, Milli İdman Arenasında, Su Polosu Arenasında, Basketbol Arenasında, Üzgüçülük Arenasında və digər idman qurğularında keçirilən yarışlarda minlərlə tamaşaçının iştirakı təmin edilmişdir. Bakı Dövlət Universitetinin tələbələrindən 3000 nəfər, ümumilikdə isə rayonumuzun ali və orta-ixtisas təhsili müəssisələrindən 6000 nəfər I Avropa Oyunlarında könüllü olaraq iştirak etmişlər. Sevindirici haldır ki, 158 saylı məktəbin məzunları, Yasamal rayon sakinləri Tağızadə Ayxan -taekvando, Mürsəliyev Elvin - yunan-Roma güləşi idman növləri üzrə Avropa Oyunlarında qızıl medallar qazanmışlar.

Bakı şəhərinin Baş Planına əsasən “Sovetski” adlanan ərazidə köçürmə və daşınmaz əmlakın sökülməsi işləri icra olunur. Köçürmə prosesinin ikinci mərhələsində alqı-satqı prosesi və söküntü işləri davam etdirilir.

Qanunsuz tikililərə qarşı mübarizə çərçivəsində 18 müxtəlif təyinatlı qeyri-qanuni tikili, 9 ünvanda zəbt olunmuş torpaq sahəsi ətrafına çəkilmiş hasarlar sökülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən əhalinin sosial problemlərinin həlli istiqamətində verilmiş tapşırıqlar və bu sahədə yaranmış problemlərin həlli daim rayon icra hakimiyyətinin nəzarətində olmuşdur. Mənzil fondunun, sosial obyektlərin, təhsil, səhiyyə və digər müəssisələrin payız-qış mövsümünə hazırlığının lazımi qaydada təmin edilməsi məqsədilə Yasamal Rayon İcra Hakimiyyəti başçısının 197 nömrəli 07 avqust 2015-ci il tarixli sərəncamı ilə tədbirlər planı təsdiq olunmuşdur. Rayon sakinlərinin, eləcə də hüquqi və fiziki şəxslərin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz ilə təchizatı məsələsi, demək olar ki, bütünlüklə həll edilmişdir.

İstiliklə təchizat problemi tam şəkildə, hələ ki, öz müsbət həllini tapmasa da, bu sahədə işlər ardıcıl olaraq davam etdirilir. “Azəristiliktəchizat “ ASC-nin 8 və 14 saylı rayon İstilik Sistemlərinin İstismarı sahələri tərəfindən 134 saylı qazanxanada əsaslı, 143, 144, 321 və digərlərində isə cari təmir işləri aparılmışdır. Əbdürrəhimbəy Haqverdiyev küçəsi 2, Qədirli 5, Abdulla Şaiq 245 A ünvanlarında binalara gedən 120 p/m istilik xətti dəyişdirilərək istiliklə təmin olunmuşdur. Seyfəddin Dağlı 12, 570-ci məhəllə, Mətbuat prospekti 42, 87, 87 A, 91, Bəsti Bağırova 6, Hüseyn Cavid 91 A, 3148-ci, 3155-ci məhəllələrdə, Həsənbəy Zərdabi 75, Əsəd Əhmədov 26, 30, 34, Abbas Mirzə Şərifzadə 75, 124, 129, 164, 192 və digər ünvanlarda istilik təchizatının yaxşılaşdırılması üçün ümumilikdə 1300 p/m yeni boru çəkilmişdir. Yaşayış binalarının isti su təchizatının yaxşılaşdırılması üçün yay mövsümündə 8 nömrəli rayon istilik qazanxanasında təmir işləri aparılmış, 2 ədəd suqızdırıcısı yenisi ilə əvəz olunmuşdur. 128, 205, 321 saylı istilik mənbəyində yeni tipli qazan aqreqatları və daha böyük gücə malik nasoslar quraşdırılmışdır. Görülmüş işlər nəticəsində 385 yaşayış binası, o cümlədən Mənzil Kommunal Təsərrüfat Birliyinə məxsus 200 bina istiliklə təmin edilmişdir.

Rayonda fəaliyyət göstərən 24 orta təhsil məktəbindən 13-ü, 2 musiqi məktəbi “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti tərəfindən istiliklə təmin olunmuş, digərləri isə, o cümlədən bir musiqi məktəbi fərdi istilik mənbəyindən istiliklə təchiz olunmuşdur və bu sahədə ciddi problem mövcud deyil.

Rayon ərazisində yerləşən məktəbəqədər uşaq müəssisələrinin, respublika və şəhər tabeli səhiyyə müəssisələrinin istilik təchizatında problem yoxdur.

Bununla yanaşı, 150-yə yaxın yaşayış binası, hələ ki, istiliklə təmin olunmur. Bunun da səbəbi kimi binadaxili və məhəllədaxili istilik sistemlərinin, aşağı paylayıcı sistemlərin yararsız vəziyyətdə olmasını, mövcud qazanxanaların müasir tələblərə uyğun modernləşdirilməsinə və yeni qazanxanaların tikilməsinə ehtiyac olmasını göstərmək olar.

Ötən 9 ay ərzində rayonda keçirilən tədbirlər rəngarəngliyi ilə yaddaqalan oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən əhalinin icbari tibbi müayinəsi tədbirləri yüksək mütəşəkkilliklə həyata keçirilmişdir.

Digər sahələrdə olduğu kimi, rayonun təhsil müəssisələri də bir çox uğurlara imza atıblar. Fizika-riyaziyyat və informatika təmayüllü liseyin məzunları Müşviq Əlizadə və Natiq Ağayev qızıl medala layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2015-ci il tarixli sərəncamı ilə Avropa liseyinin tarix müəllimi Tahirə Rafiq qızı Allahverdiyevaya, 308 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Məhəbbət Bəhram qızı Məmmədovaya və Akademik Zərifə Əliyeva adına liseyin ingilis dili müəllimi Dursun Həsən qızı Yaqubovaya “Əməkdar müəllim” fəxri adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin digər sərəncamı ilə Avropa liseyinin ibtidai sinif müəllimi Zeynəbxanım Heybət qızı İsmayılova, 24 saylı Uşaq yaradıcılıq mərkəzinin direktoru Gülarə Knyaz qızı Quluzadə “Tərəqqi” medalı ilə təltif edilmişlər.

2014-2015-ci tədris ilində rayonun orta təhsil məktəblərində təhsilini başa vurmuş 1937 buraxılış məzunlarından 1238 nəfəri yüksək nəticələr göstərərək tələbə adını qazanmışlar. Bu da ümumi sayın 64 faizini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ali məktəblərə yüksək balla daxil olmuş 102 nəfər tələbəyə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb və sevindirici haldır ki, onlardan 4 nəfəri - Zaur Şahverdiyev, Məhbubə Babaşova, Fərid İsmayılov Akademik Zərifə Əliyeva adına liseyin, Səidə Dadaşova 167 nömrəli məktəbin yetirmələridirlər.

Təhsilimizin inkişafında əməyi və xidmətləri olan müəllimlərimizdən biz də diqqətimizi əsirgəmədik. Beynəlxalq Müəllimlər Günü münasibətilə 52 saylı tam orta məktəbin direktoru Elmira Ələsgər qızı Ələsgərova, Akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Hidayət qızı Vəliyeva, Avropa liseyinin elmi rəhbəri Zülfiyyə Altay qızı Veysova, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin direktoru Tariyel İsmayıl oğlu Talıbov Yasamal Rayon İcra Hakimiyyətinin fəxri fərmanları ilə təltif edildilər.

Hesabat dövründə rayon icra hakimiyyəti başçısının qəbulunda olmuş 452 nəfər, onlardan aparatda 248, səyyar qəbul-görüşlərdə 204 nəfər, ötən ilin müvafiq dövründə 493 nəfər vətəndaş müraciət etmişdir. Rayon icra hakimiyyəti başçısının 12 səyyar qəbul-görüşündə 3000 nəfərdən çox rayon sakini iştirak etmiş, onların sosial-məişət problemləri ilə əlaqədar qaldırdıqları 429 məsələ operativ qaydada müsbət həll edilmişdir, 23 müraciətin baxılma müddəti vardır.

Rayonda qarşıdan gələn Milli Məclisə seçkilərə də geniş hazırlıq işləri aparılır.

Toplantıda 14 nömrəli İstilik Sistemləri İstismar Sahəsinin rəisi Rahil Həsənli, 53 nömrəli orta məktəbin direktoru Firəngiz Həsənova, 5 nömrəli uşaq poliklinikasının baş həkimi Ədilə Seyidova və rayon polis idarəsinin rəisi İsfəndiyar Mehbalıyev çıxış etdilər.

İbrahim Mehdiyev yığıncağı yekunlaşdıraraq əminliklə bildirdi ki, Yasamal paytaxtın rayonları arasında öz liderlik mövqeyini ləyaqətlə qoruyub saxlayacaq, Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələr uğurla icra olunacaqdır.

**Qədir ASLAN,**
**“Respublika”.**
**Foto S.MƏMMƏDİNDİR.**